

# MEŞİN ÇANTA

Hekayə

*Zəka Vilayətoğlu*

**(əvvəli ötən sayımızda)**

Qarının açıq, ifadəsiz, solğun gözləri, eləcə tavana zillənib qalmışdı. Pişik isə sakitcə başını qoyub onun ayağı ucunda xorna çəkirdi. Hələ gələn, qapını döyən yox idi. Ağır iy-qoxu, hər tərəfindən misginlik, köhnəlik və bədbinlik yağan otağın bağrını çatladırdı...

Qapıya kimsə açar saldı. Çaqqıltıya pişik oyandı və başını qaldırıb qapıya sarı baxdı. Az sonra qapı açıldı və Cavanşir, nigaran, narahat bir görkəmlə otağa daxil oldu. İçəri girincə otaqdakı ağır, pis qoxu onu vurdu və az qaldı ki, ödü ağzına gəlsin. Buna baxmayaraq, irəli yeridi və qarıya nəzər salmadan otağın pəncərələrini tayba-tay açdı. Tər-təmiz hava axını otağa dolub, içəridəki pis, ağır havayla ölüm-dirim savaşına çıxdı...

Cavanşir qarıya yaxınlaşdı və diqqətlə onun açıq, ifadəsiz gözlərinə baxdı. Bir söz demədən dinşəməyə başladı; qarı nəfəs almırdı. Onda həyat əlaməti hiss olunmurdu. Buna baxmayaraq, Cavanşir qarını bir neçə dəfə səslədi, amma cavab gəlmədi və o, tam əmin oldu ki, qarı canını tapşırıb. O dəqiqə cib telefonunu çıxardı və qarının ölüm xəbərini sahə həkiminə bildirdi.

Daha sonra yaxın qonşuları da çağırıb bir yerə yığdı və bu haqda onlara da məlumat verdi. Hər halda qonşuların bu hadisəylə bağlı şahidliyi vacib idi. Onsuz da hamı yaxşı bilirdi ki, Cavanşir, bu çağacan qarıya necə baxıb. Hətta yatağa düşdüyü gün Cavanşirin arvadı qarıdan ötrü xam, isti yorğan-döşək gətirmişdi ki, indi həmin yorğan döşəkdə can vermiş qarı, elə bil şirin bir yuxuya getmişdi.

Adamlar baş-başa yığışıb qarının ölümündən danışırdılar. Arabir Cavanşirə bəxtəvərlik də verirdilər ki, mənzillərin qiymətinin kəllə-çarxa çıxdığı bir zamanda Cavanşirin bəxti gətirib...

Bir azdan qoltuğu papkalı iki nəfər gəlib çıxdı. Üzlərində ciddi bir ifadə vardı. Sanki kiməsə qəzəblənmişdilər və elə bil, bir azdan kimisə, niyəsə günahlandırıb, cəzalandıracaqdılar. Az sonra məlum oldu ki, onlardan ən yaşlısı Rayon Mərkəzi Xəstəxanasının Ölüyaran həkimi, yaşca cavanı isə Rayon prokurorluğunun müstəntiqi idi.

Ölüyaran həkim qarının evinə daxil olan kimi pencəyini çıxarıb ağ xalatını geyindi. Bundan sonra daha da ciddi görkəm alıb, qarının meyitinə yaxınlaşdı. Ardınca müstəntiq də meyitə yaxınlaşdı və papkasından kağız, qələm çıxarıb, həkimin meyitlə bağlı dediklərini qeyd etməyə başladı. Bu an müstəntiqin də sifətindən zəhərmar yağırdı. Sanki bura gəlməmişdən əvvəl hər ikisi sözləşmişdilər ki, sifətlərinə eyni cür ifadə versinlər. Bu da əslində Cavanşiri xoflandırmaq üçün idi və işin həddindən artıq "ağır" olmasından xəbər verirdi.Buna baxmayaraq, Cavanşir özünə təskinlik verməyə, allah yanında, qarıyla bağlı heç bir nahaq və günahsız işi olmadığına özünü inandırmağa çalışırdı. Buna öz varlığı kimi inanırdı da. Amma Ölüyaranla müstəntiqin sifətlərindəki zəhm, ağır ifadə özgə şey deyirdi.

-Yaz! Meyitin qarın nahiyəsində və sağ ayağının dizdən aşağı hissəsində xırda şişlər var. Kürəyinin bir neçə yerində də müəyyən əzik yerləri aşkarlandı,-Ölüyaran müstəntiqə dedi. Bir kənarda aramsız siqaret tüstülədən və həyəcanla, gah bayıra çıxan, gah da təzədən içəri girən Cavanşir Ölüyaran həkimə dedi:

-Həkim, özünüzə nahaqdan əziyyət verməyin, qarı öz əcəliylə ölüb. Mənim yetərincə şahidlərim də var.

-Yaz. Meyitin boğazında nazik bir həlqə aşkarlandı,-həkim Cavanşirə məhəl qoymadan müstəntiqə dedi. Cavanşir,- bir qədər əsəbləşməsinə baxmayaraq,-özünü ələ aldı və cibindən yüz manat pul çıxarıb, həkimin cibinə basmaq istədi. Həkim, cibinə girməkdə olan pulu tutub baxdı və sahibinə qaytardı. Bir qədər də ciddiləşib dedi:

-Siz bizi kiminləsə səhv salırsınız!

-Həkim, vallah, özünüzü əbəs yorursunuz! Axı nəyə lazımdır, bu işi böyütmək?-Cavanşir rahatsız dilləndi.-Meyiti boş yerə incitmək allaha da xoş getməz. Gəlin, razılaşaq, vaxtında onu dəfn edək. Odur, məsciddən maşın, fəhlə gətirtmişəm ki, aparıb meyiti yusunlar, el adətincə onu dəfn edək... Alın, yüz manat da əlavə verirəm, halal xoşunuz olsun!

-Vətəndaş, məsələ yüz, ya iki yüz manatda deyil,-həkim, təkrarən qarının boğazındakı nazik qara həlqəyə baxdı və əliylə dönə-dönə yoxladı.-Siz anlayırsınızmı ki, burda insan ölüb!.. Bu həlqə məndə şübhələr yaradır. Ona görə də meyiti "Morq"a aparıb, yarmamız məsləhətdir,-həkim müstəntiqə baxdı. Arxası Cavanşirə dayanmış müstəntiq həkimə göz basdı. Bu o demək idi ki, qiyməti qaldırmaq lazımdır. Belə bir hadisəni iki yüz manatla bağlamaq ağılsızlıq olar. Amma Cavanşir də Cavanşirliyini elədi; üçüncü kərə qiyməti qaldırmadan, üstəgəl bir qədər də qəzəb və ikrahla dilləndi:

-Hara istəyirsiniz aparın!.. Onsuz da sizin yoxlamalarınız, heç də sizin xeyrinizə olmayacaq. Meyitin boğazındakı o nazik həlqəyə gəldikdə isə,.. qarı həmişə başına ləçək bağlayırdı və o ləçəyin də nazik uclarını çənəsi altında düyünləyirdi...

Ölüyaran həkim yenə də Cavanşirin dediklərinə məhəl qoymadı və meyitin müayinəsi sona yetincə, onun telefon zəngindən sonra, meyiti "Morq" deyilən yerə aparmaq üçün lazımi avtomobil gəlib çıxdı.

"Morq"da meyitin yarılma prosesi çox uzun çəkdi. Sonda, Cavanşirin zərərinə ola biləcək bir şey aşkarlanmadı. Həkim, qarının yarılmış qarnını təzədən tikib, qanlı əlcəklərini çıxararaq, tərini sildi. Sonra cavan müstəntiqə baxdı və astadan dedi:

-Biz uduzduq! Qarı, doğrudan da öz əcəliylə ölüb. Deyəsən, o iki yüz manat əlimizdən çıxdı! Yenə də sən yaxşısan, o müəllimi bir kənara çək, özün gir qılığına, bir şey istə, bəlkə verdi. De ki, görürük ki, pis adama oxşamırsan, ona görə də bu işlə bağlı çox dərinə getmək istəmirik... Əziyyət çəkmişik, yüz manat da versə, qənimətdir.

-İndi prokuror gəlib meyitə baxacaq. O gəlib, getdikdən sonra bu işlə məşğul olaram,-müstəntiq bildirdi və tez də əlavə etdi:-Görkəmindən demaqoq adama da oxşayır. Birdən bizi səsə-küyə salmaz ki!

-Yox, əşi. İnanma ki, iki yüz manatdan ötrü o cür yaramazlıq edə. Nə itirir ki, onsuz da o boyda mənzil qalır ona... Belə bilsəydim, o iki yüzü isti-isti alıb qoyardım cibimə. Yaxşı yerində deyiblər ki, çox istəyən, azdan da olar... Heç nahaqdan özümüzü yorduq. Dedim: bəlkə qorxudub, qiyməti qaldıra bilərik. Bu balaca iş deyil. Arada o boyda mənzil var. Zalım oğlundan mincə manat qopara bilsəydik,.. Amma bu adam da azacıq aşın duzu deyilmiş,-həkim dilləndi. Bu an prokuror qapıdan girdi və diqqətlə meyiti nəzərdən keçirdi. Biləndə ki, bu işdə cinayət itərkibi yoxdur, müstəntiqə dedi:

"Verin, aparıb basdırsınlar!.. Özün də yubanma, işə tez gəl, baxılmalı işlər var". Bundan sonra prokuror çox gözləmədi və qəfil gəldiyi kimi, qəfil də öz xidməti maşınına əyləşib getdi.

Cavanşir, qarını məsciddə yudurtdu və çox hörmətlə də şəhər qəbristanlığında dəfn elətdirdi, Quran oxutdurdu. Sonra çadır qurdurmaq, ehsan vermək də istədi, amma Alihüseyn razılaşmadı ki, qarı rusdur və ona müsəlman adətincə ehsan vermək yaramaz. Cavanşir də beş-on kilo yağ və un alıb, halva çaldıraraq, qonşulara ehsan payladı. Yalnız bu ağır günlərdən sonra Cavanşirə tam yəqinliklə məlum oldu ki, bütün qonşuların rus qarısı zənn elədikləri qarı əsil türk qarısıymış... Əslində qarını öz himayəsinə götürərkən, şəxsiyyətini təsdiq edən sənədlərdə qarının adı, soyadı, atasının adı onun türklüyündən xəbər vermişdi. Amma Cavanşir üçün maraq kəsb edən əsas şey, qarının türk və ya qeyri-türklüyündən daha çox onun mənzili olmuşdu.

Dəfndən bir neçə gün sonra, ev-eşiyi təmizlədərək, yığışdırıb elətdirən zaman Cavanşirin əlinə qarının həmin meşin çantası keçdi. Əvvəlcə istədi ki, bu çantanı da bir kənarda yığılmlş zibil yığınının üstə atsın, nə fikirləşdisə, atmadı. Birdən xatırladı ki, bu çantanı həmişə qarının çiynində görüb və həmişə olmasa da arabir maraqdan boğulub ki, görəsən, bu çantada nə var ki, qarı onu belə əzizləyir, bir an da olsa, yadından çıxarmır, nəzərdən qaçırmır.

Cavanşir hədsiz maraqla meşin çantanı açdı və içindəkiləri stolun üstə boşaltdı. Bir dəstə şəkil, bir neçə saralmış, köhnəlmiş qəzet, bir neçə məktub, nə vaxtsa qarının işi və həyatı üçün çox əhəmiyyətli sənədlər və bir qalaq dəftər stol üstə səpələndi. O, əvvəlcə şəkillərə göz gəzdirdi. Hamısı qarının gəncliyində çəkilmiş şəkillər idi. Şəkillər arasında qarının tək və ayrı-ayri adamlarla çəkdirdiyi şəkillər də vardı.

Bu şəkillərə baxdıqca, Cavanşir içini çəkirdi. İnanmağı gəlmirdi ki, şəkildən boylanan gənc, yaraşıqlı, adamın ağlını başından alan qız, onun tanıdığı və on altı il himayədarlıq etdiyi qarıdır. Aman Tanrım, ağır gün insanı nə kökə salarmış?..

Körpəliyindən rus təhsili almış qarı, sən demə, Tarix elmləri doktoru imiş və uzun illər Elmlər Akademiyasında məsul vəzifədə çalışıbmış. Sonradan, haqsız olaraq, onu vəzifəsindən uzaqlaşdırıblarmış. Hara, kimə şikayət etmişsə, onun halına yanan olmamış, nəticədə qarı hamıdan, hər kəsdən küsüb, bir müddət ruh düşkünlüyünə düçar olubmuş. Bu haqda o, öz yazdıqlarında açıqca göstərilmişdi.

Cavanşir qəzetləri açıb baxdı. Biri "Kommunist" qəzeti idi. Geniş bir səhifədə qarının şəkli və müsahibəsi dərc olunmuşdu. İkinci qəzet Türkmənistan Respublikasının qəzeti idi. Bu qəzet, qarının, Azərbaycandan Türkmənistan respublikasına ezam edilən və kimyaçı alim olan atasından bəhs edirdi.

Bir tərəfdə də alimin ailəsinin şəkli dərc edilmişdi. Qarının yeniyetməlik çağları da həmin şəkildə aydın görünürdü.

Qarının qeydlərindən məlum olurdu ki, onlar bir neçə il, atasının mühüm işlərilə əlaqədar olaraq, Aşqabadda yaşayıblar. Cavanşir şəkillərə baxdıqca, qarının, bir vaxtlar haqqında yazılanları oxuduqca, heyrətini gizlədə bilmirdi. Bu heyrətlə o, qalın-qalın dəftərləri açıb baxdı. Sən demə, qarı əməlli-başlı yazıçı imiş.

Həmin dəftərlərdə səliqəli xətlə yazılmış hekayələr, povestlər qarının mənasız bir ömür yaşamadığından xəbər verirdi. Tam peşəkarlıqla yazılmış hekayələr, xüsusilə gözəl idi. Ta uşaqlıqdan kitabı, mütaliəni, xüsusilə bədii ədəbiyyatı çox sevən Cavanşir nəfəs dərmədən qarının hekayələrindən bir neçəsini oxudu və sonda özünə söz verdi ki, qarının kitabını çap etdirəcək. Hekayələrdən ən xoşuna gələnin adını gələcək kitaba, xəyalən ad olaraq, seçdi: "Meşin çanta".

"Meşin çanta" hekayəsi avtobioqrafik bir hekayə idi. Və bu hekayəni, yazının sonundakı tarixdən məlum olurdu ki, qarı ömrünün əlli-altımışıncı illərində yazıb. Deməli, bu meşin çanta, elə həmin meşin çanta idi və nə az, nə çox iyirmi-otuz ilin, bəlkə də qırx ilin çantasıydı...

Cavanşir, qarının əmanətlərini yenidən meşin çantaya yığdı və bu haqda düşüncələrinə ara verib, evin təmiri və tezliklə yaxşı qiymətə kirayə verəcəyi haqda fərəhlə düşünməyə başladı. Əgər yaxşı təmir olunsa, beş yüz manatdan ucuz kirayəyə vermək ağılsızlıq olardı. Beş yüz manat da, heç yerdə işləməyən bir adam üçün, olduqca dəyərli bir məbləğ idi.

Bəlkə də bu məbləği əldə etdiyi gün qarının hekayə və povestlərindən ibarət bir kitabı, Cavanşir, doğrudan da çap etdirib, işıq üzünə çıxaracaqdı. O zaman siz də həmin "Meşin çanta" kitabını oxuyub, şahid olacaqsınız ki, dünyadan nakam köçən həmin qarı, adi bir qarı yox, çox istedadlı bir yazıçı imiş...